# MÜSAHİBƏ



## GƏLƏN IL SOROS FONDUNUN (ACİ-YF) PRIORITETLƏRI KOMMUNAL XƏRCLƏR VƏ ANALITIK QRUPLARDIR

*Fərda Əsədov:* ***Monitorinqlərdən əldə olunan hesabatlar strategiyamızın təkmilləşməsinə, tərəfdaşlığın dəqiqləşməsinə kömək edir.***

Suallarımızı Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu milli ofisinin İcraçı Direktoru Fərda Əsədov cavablandırıb:

***- Fərda müəllim, 2009-cu ilin vətəndaş cəmiyyəti 2008-ci ildəkindən nə ilə fərqləndi? Sizin müşahidələrinizdə Vətəndaş Cəmiyyəti institutlarının ugurları və ugursuzluqları nədən ibarət idi?***

- 2009-cu il vətəndaş cəmiyyəti üçün gərgin il hesab oluna bilər. İlk növbədə, qeyri-hökumət təşkilatları ilə baglı qanunvericiliyə üçüncü sektorun müstəqilliyi və fəaliyyətini məhdudlaşdıran dəyişikliklər təklif olundu. Bir tərəfdən bu arzuolunan vəziyyət deyildi. O biri tərəfdən isə müəyyən qədər vətəndaş cəmiyyətinin inkişafında ugurlardan xəbər verən sınaq oldu. Vətəndaş cəmiyyəti strukturları məsələyə ciddi yanaşmaq bacarıgını ortaya qoydular, səfərbər oldular. Hökumətlə münasibətlərdə də müəyyən mübadilə və dialog mədəniyyəti oldugundan vətəndaş cəmiyyətinin qanunvericiliklə baglı tənqidi mövqeyinə hökumətin də müsbət reaksiyası oldu. Məhdudiyyətli əlavələr axır məqamda qəbul olunmadı. Bu, ən vacib nəticələrdən və bizim öyrəndiyimiz dərslərdən biri idi.

***- ACİ-YFın bu ilki fəaliyyətini necə qiymətləndirirsiniz - həm beynəlxalq səviyyədə, həm də Fondun yerli ofisinin işini? Hansı sahələrdə töhfələriniz oldu, harada ugursuzluqla qarşılaşdınız?***

- Bütövlükdə şəbəkə üzrə çox ugurlar olub. Bir neçə gün əvvəl Amerika Konqresində narkotiklərin istifadəsi sahəsində Zərərin Azaldılması Proqramları üçün qanunvericilikdə olan məhdudiyyətlərin qaldırılması haqda təkliflər verilib və daha əlverişli şərait yaradılır. Azərbaycanda da belə problem var. Qlobal Fondla əməkdaşlıq şəraitində Səhiyyə Nazirliyi və vətəndaş cəmiyyəti fəalları birgə qanunvericiliyin təkmilləşməsi üzərində işləyirlər. Parlamentdə hətta qanunvericiliyin dəyişməsinin gündəmdə olması barədə xəbərlər gəlir. Stateji tərəfdaşımız olan Mədən Sənayesində Şəffaflıq Koalisiyası bir neçə il aparılan işin nəticəsində nəhayət bu il hökumətlə çoxtərəfli qrupun təşkilinə nail ola bildi. Məlumatın əldə edilməsi haqqında qanunun tətbiqi ilə baglı monitoring aparmaq üçün metodologiya işlənilib, dövlət qurumlarının saytları, onların vətəndaşların sorgularına cavab verməsi haqda reytinqlər çıxarılıb. Mənzərə belədir ki, nazirliklər ən yaxşı halda 50 faizdən bir qədər artıq tələb olunan məlumatları saytlarında yerləşdirirlər. Növbəti mərhələdə bu təşəbbüsün müqayisəli şəkildə bir neçə ölkədə aparılması haqda qonşu Gürcüstan, Ukrayna və Qırgızıstanla birgə metodologiya işləmişik. Gələn il müqayisəli monitoringlərlə dövlət strukturlarının ölkələr üzrə vəzifələrinin icrası reytingi hesablanacaq.

***- Qarşıya qoydugunuz hansı işləri başa çatdıra bilmədiniz?***

Uğursuzlugumuzdan biri Araşdırmaçı Jurnalistlər Şəbəkəsi oldu. Yəqin ki, səbəb araşdırıcılıq işinin fərdi olmasındadır, biz isə bunu şəbəkə formasına salmaq istədik və belə bir alyansı yuxarıdan aşagıya tərtib etmək istədik, şəbəkənin təşkili ilə özümüz məşgul olduq və gözlənilən effect alınmadı.. Yəqin ki, bu təşəbbüsün jurnalistlərdən gəlməsi düzgün olardı. Yani təşəbbüsləri jurnalistlərin öz öhdəsinə buraxsaq, öz bacarıqlarını daha dəqiq qiymətləndirərlər. Odur ki, oz modelimizi yuxarıdan aşagı tətbiq etmək fikrimizdən uzaqlaşdıq, hələlik proqramı fərqli formatda yenidən başlamaq fikrinə gəldik. Onu açıq müsabiqə vasitəsilə jurnalistlərə elan etdik. Yeri gəlmişkən, kifayət qədər böyük maraq var. Çalışacağıq ki, müsabiqə qalibləri ilə ünsiyyət, əməkdaşlıq tədbirləri keçirək və tələblərə cavab verən yeni proqram elementlərini də buraya daxil edək.

***- Belə başa düşdüm ki, model fikriniz qüvvəsində qalır. İdeya başqa formatda davam edəcək, hələ ki vəziyyəti öyrənirsiniz, eyni zamanda yeni ideyalara, təşəbbüslərə də açıqsınız.***

- Tamamilə düz buyurursuz!

***- ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun Bakı ofisinin fəaliyyətini dayandıracagı və ölkədəki bütün layihələrini donduracagı barədə məlumatlar oldu. İFES təşkilatının Azərbaycanı tərk edəcəyi söylənilib. Qlobal maliyyə böhranına görə Oxfam Novib təşkilatı 2012-ci ilə qədər neft ölkələrində yoxsullugun azaldılması proqramını baglayır. Sororsun da Azərbaycandan getməyə hazırlaşdıgı barədə mətbuatda yazılar yer alıb. Əsası varmı bu məlumatların? Bunlar Sizcə, haradan qaynaqlanır?***

- Yəqin ki, sadalanan bu faktlardan qaynaqlanır. Yəqin insanlar düşünürlər, bir halda ki, demokratiya və vətəndaş cəmiyyətinin inkişafı ilə məşgul olan təşkilatlar fəaliyyətlərini dayandırır, bu halda Fondun da baglanma ehtimalı gündəmə gəlir. Digər tərəfdən cəmiyyətdə belə təsəvvürlər ola bilər ki, bizim indiyə qədər etdiklərimiz gözlənilən səmərə vermir. İstər bizim fondun, istərsə də başqa təşkilatların demokratik islahatlara yardım etməsinə baxmayaraq, bu sahədə ötən il ərzində xeyli xoşagəlməz hadisələr baş verdi. Gənclərin həbsi və ədalətsiz mühakiməsi, jurnalistlərin yenə də peşə fəaliyyətləri zamanı zorakılıqla qarşılaşması, insan haqları müdafiəçilərindən birinin bugünlərdə Naxçıvanda tələbələr tərəfindən döyülməsi məyusluq hissi yaradan faktlardır. Bəlkə də cəmiyyətin məyusluq hissindən yaranant təəssüratdır. Düşünə bilərlər ki, bir iş görmək mümkün deyilsə, onda niyə işləyirlər.

***- QHT-lərə Dövlət Dəstəyi Şurası yaradılanda belə rəylər vardı ki, bütövlükdə donorları bir mərkəzdən idarə etmək məqsədi güdülür. Sizcə bu məsələlərin kökündə o dayanırmı ki, bu məlumatlar təsdiqlənməyə dogru gedir? Yəni hökumətin şərtləri ilə razilaşmayanlar, onun monopoliya cəhdlərini qəbul etməyənlər ölkəni tərk edir, qəbul edənlərsə qalıb, onun patronajlıgı ilə işləyir.***

- Hökumət QHT-lərə həssaslıqla yanaşır. Bəlkə də onların işinə nəzarət etmək meylində ola bilər. QHT-lərə Dövlət Dəstəyi Şurası da bəlkə bu tendensiya daxilində anlaşılan struktur kimi qəbul olunurdu. Lakin, təcrübə göstərir ki, bu, heç də birmənalı proses deyil. Məsələn, QHT qanunvericiliyinə dəyişikliklə bagli prosesləri yada salsaq görərik ki, Şura QHT və hökumət arasında müəyyən mübadiləni təmin edən bir qurum kimi özünü göstərə bildi. Fəaliyyətləri QHT-nin narahatlıgına bir dəstək mövqeyində oldu. Müsbət nəticənin əldə olunmasında da töhfəsini verdi. Birdə qeyd etdiyiniz faktlar ehtimal etdiyiniz səbələrlə uyğunluq təşkil etmir. Ölkəni tərk etməsi haqda xəbərləri olan təşkilatlarç azı onlrdan biriç əslində bir neçə il Azərbaycan hökümətinə texniki yardımlar etmişdir.

***- Şura və ACİ-YF Avrointeqrasiya sahəsində memorandum imzalayıb, birgə qrant müsabiqələri keçirirsiz. Memorandumda fəaliyyətin birgə koordinasiyası məqsədi ilə Donorların Koordinasiya Şurasının yaradılmasına dəstək vermək niyyətləri təsbit edilib. Burada söhbət bir mərkəzdən idarə olunmadan getmir?***

- Şura ilə imzalanan memorandum da bu ilin nailiyyətlərindən hesab oluna bilər. Hər iki donor qarşılıqlı hörmət şəraitində birgə fəaliyyətlərini qurdular. Prioritet mövzu Avropaya inteqrasiyada QHT-lərin iştirakşılıgı açıq müzakirə nəticəsində ümumi razılıqla seçilib. Başqa fəaliyyətlərimizlə bagli heç bir məhdudiyyət qoymayan bir razılaşma idi. Fond da Şura da başqa proqramlarını özləri icra etmək hüququnda qaldılar. Bildiyimə görə Şura eyni səviyyədə, eyni şərtlərlə əməkdaşlıgını başqa donorlarla da qurmaq fikrindədir. Koordinasiya məsələsinə gəlincə, burada birgə elan etdiyimiz müsabiqəyə qərar verən birgə komissiyadan danışılır. Söhbət bütövlükdə fəaliyyətdən yox, sadəcə elan olunmuş müsabiqədən gedir.

***- QHT Şurası xüsusi bir siyasəti olmayan qurumdur. Hərdən gülüş doguran layihələri də maliyyələşdirə bilir. Soros isə özünün hədəfləri, strategiyası olan bir donordur. Burada səmərəlilik nədən ibarətdir, Sizi birləşdirən nədir?***

- Bildiyimə görə strategiyanın işlənməsi üçün Şurada səylər göstərirlər. Bizi birləşdirən bir məqsəddir: vətəndaş cəmiyyətinin dəstəklənməsi, üçüncü sektorun ölkədə baş verən proseslərdə rolunun artması və vətəndaş cəmiyyəti ilə hökumət, biznes strukturları arasında dialoqun yaranmasıdır. Şuranın vacib vəzifələrindən biri hökumətin QHT-lərlə əlaqədar siyasətinin formalaşmasına töfhə verməkdir. Bu qurum üçüncü sektora dövlət qurumlarından daha yaxındır. Bu qədər vəzifələrin oxşarlıgı şəraitində əməkdaşlıq haqda ciddi düşünmək lazımdır. Şura QHT-lər üçün vacib məsələlərə artıq töfhə verməyə başlayır. Gələn ildən maliyyə hesabatlılıgının milli standartları işə salınmalıdır. Bununla bagli QHT-lərin hazırlıgı treyninqlərlə təmin olunacaq. Treyninqlərin məzmunu Maliyyə Nazirliyi ilə razılaşdırılmalıdır

ki, icrası zamanı anlaşmazlıqlar olmasın. Bu tərəfdən Şura yetərli qədər iş aparıb. Conterpart İnternational təşkilatı və bizim iştirakçılıgımızla treyninqlərin məzmunu haqda razılaşma üzərində iş aparılır. Artıq treyninglərə start verilmək üzrədir. Bəlkə də Avropa qonşulugu siyasəti və vətəndaş cəmiyyətinin artan rolu ilə baglı da Dövlət Dəstəyi Şurası münasib şərait yaratmaqda ugurlu addım atacaq. Belə ümidverici əlamətlər də var.

***- Bu il Azərbaycanın vətəndaş cəmiyyətinin inkişafına Soros nə qədər vəsait ayırdı? Azərbaycanda donorların ayırdıgı vəsaitlərin neçə faizi Fondunuzun payına düşür?***

- Soros Fondunun iki əsas mənbəsindən maliyyə əldə edirik. Biri mərkəzi fond tərəfindən xüsusi ayrılmış vəsaitdir və bu adətən 2.5 milyon dollar civarında olur. Üstəlik şəbəkə proqramlarının da vəsaitini cəlb edirik. Bir çox proqramlarda bu, hətta 50 faiz təşkil edir. Məsələn, səhiyyə proqramına şəbəkə proqramından cəlb olunan vəsait bizim milli fondun qoydugu vəsait qədərdir. Üçüncü tərəfdaşların da xeyli vəsait qoyuluşu olur. Bunlardan ən böyüyü yenə səhiyyəyə maliyyə ayıran Qlobal Fonddur. Yardım göstərən böyük donorlarımızdan Revenue watch İnstitutu Şəffaflıq proqramına vəsait ayırır. Keçən il İnstitutun proqrama verdiyi vəsait 50 faiz idi, bu il bir qədər azdır. Nəticə etibarilə biz 3-3.5 milyon dollar civarında vəsait xərcləyirik. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) tərtib etdiyi vətəndaş cəmiyyətinə yardım proqramı haqda məlumatım yoxdur. Təxmin edirəm ki, qoydugumuz vəsait onlarla müqayisəli bir məbləgdir. Fəaliyyətimiz təkcə qrantlardan ibarət deyil, əməliyyatları da özündə ehtiva edir. Qrant proqramları hər il bizdə 2 milyon dollar civarındadır. Şuranın da qrant proqramı təxminən bizimki qədərdir.

***- Bəs gələn il Azərbaycanın vətəndaş cəmiyyətinə nə qədər vəsait ayıracaqsınız? Qlobal maliyyə böhranı növbəti ilin maliyyə qoyuluşuna təsir edəcək?***

- Hələ ki, büdcələrimiz təsdiqlənməyib. Amma vəsaitlərin azalması haqda fikir və ehtimal yoxdur. Lakin, böhranın başqa donorların fəaliyyətinə təsir göstərəcəyini istisna etmirəm.

***- Qoyulan vəsaitlə görülən işlərin keyfiyyəti adekvatdırmı? Gözlədiyiniz "məhsul"u vətəndaş cəmiyyəti institutlarından ala bilirsiniz?***

- Əvvəlki illərdəki vəziyyətlə müqayisədə vətəndaş cəmiyyətinin inkişafı qeyd olunmalıdır. Bir çox QHT-lər peşəkarcasına, mütəşəkkil iş aparmagı bacarırlar. Fondun dəstəyilə koalisiyaların yaradılması istiqaməti nəticələrini verir. Əlbəttə ki, koalisiyalar hələ də oturuşmuş, nüfuzlu bir faktora çevrilmirlər, eyni zamanda onların xeyli ugurları da var. Bu koalisiyalar azı vətəndaş cəmiyyətinin daxilində müəyyən şəffaflıga gətirən təşəbbüslərdir. Çünki, Koalisiya daxilində şəffaflıgı tələb edən tərəflər və bu tələblərin məsuliyyətini daşıyan tərəflər var. Aralarında daim mübadilə olur. O biri tərəfdən, bir çox koalisiyalar fəaliyyət göstərdikləri sahədə artıq dialoqun yaranmasına yaxın olan, yaxud dialoqu əldə etmiş qurumlar kimi özlərini göstərirlər. Eyni zamanda nöqsanları da görürük. Təəssüf ki, hələ də qarşıya qoyulan hesabatlılıq, peşəkarlıq, QHT şəffaflıgı məsələləri tam həllini tapmır. Səhiyyə, təhsil siyasətinə təsir sahəsində də nailiyyətlər olsa da, tələb olunan dərəcədə deyil. Yaxşı olardı ki, büdcə prosesinin müzakirəsində müəyyən vətəndaş maraqları qruplarının iştirakı təmin olunsun, əhalinin maragını əks etdirən məsələlər vaxtında hazırlansın, bunun üzərində müzakirələr aparılsın. QHT fəaliyyəti, sərbəst toplaşma azadlıgı ilə baglı çatışmazlıqlar var. QHT qeydiyyatı ilə bağlı ehtiyac var ki, qanunvericilik bir qədər də yumşaldılsın, bu məsələ asan prosesə çevrilsin. Ugurlu layihələr var, ugurlu olmayanlar da. Bəzi layihələrin dayandırılması da tələb olunur. Hazırda 5 layihə var ki, onları tamamlanmamış dayandırmaga məcburuq. Bunlardan biri jurnalist araşdırmaları şəbəkəsi layihəsidir və artıq adını da qeyd etdim. Digərləri isə müqayisədə kiçik, yeni tərəfdaşlıq layihələridir. Adətən ikincilərlə risk səviyyəsi yuxarı olur. Bu qrup layihələrdə ugursuzluqlar daha çoxdur. Ötən ildən biz layihələrin keyfiyyəti üzərində xüsusi monitoringin aparılmasına da başlamışıq. Tanınmış milli ekspertləri layihələrin qiymətləndirilməsinə cəlb edirik. Monitorinqlərdən əldə olunan hesabatlar strategiyamızın təkmilləşməsinə, tərəfdaşlıgın dəqiqləşməsinə kömək edir.

***- Fərda müəllim, Təşəbbüsünüzlə yaranan və böyük maliyyə ayırdıgınız şəbəkələrdən biri EİTİ koalisiyasının ümumi yıgıncagında qonaq qismində iştirak edirdiniz. Bu qurum da vətəndaş cəmiyyətinin bir təzahürüdür. Tədbirdən müşahidələriniz maraqlıdır.***

- Mədən Sənayesi Şəffaflıgı Təşəbbüsü beynəlxalq bir təşəbbüsdür və Azərbaycan hökumətinin də buna müsbət münasibəti var. Bu, vətəndaş cəmiyyətinin milli sərvətlətimizin şəffafliğı içində iştirakçılıgını təmin edən bir fürsət idi. Ona görə düşündük ki, vətəndaş cəmiyyətini səfərbər etmək, bu

işə geniş QHT kütləsini cəlb etmək vacibdir. Koalisiya məsləhətləşmələr nəticəsində formalaşdı. Yarananda üzvlərinin sayı 40 ətrafında idi, indi isə 130-dan çox təşkilat və fərd burada təmsil olunur. Bu böyüklükdə vətəndaş cəmiyyiti koalisiyası nəinki Azərbaycanda, başqa ölkələrdə də nadir rastlaşıla bilər. Ən azından qonşu ölkələrdə belə bir koalisiya yoxdur. Qazaxistanda eyni təşəbbüslə koalisiya yaradıldı, sonradan parçalandı, aralarında qarşıdurma oldu. Bu, QHT iştirakçılıgına ziyan verən bir təcrübə idi. Daxili ziddiyyətlər, dartışmalar, fikir ayrılıgına baxmayaraq, Azərbaycanda koalisiya fəaliyyətini davam etdirir. Ümumi yıgıncaqda nə qədər maraq toqquşmasının oldugunu gördük. Bu koalisiya da cəmiyyətimizin kiçik bir modelidir. Mənə ümidverici xüsusiyyət kimi görünən məsələ ondan ibarətdir ki, bu insanları birləşdirən məqsəd hələ də qüvvəsində qalır.

***- Amma cəmiyyətdə başqa fikirlər də var. Düşünənlər var ki, EİTİ öz funksiyasını yerinə yetirmir. Əsas hədəfi şəfafflıga nail olmaq, hökumətlə dialoqa getmək olan bu təşəbbüs artıq təşkilatlararası, ayri-ayrı fərdlərarası mübahisə və müzakirələr müstəvisində mövcudlugunu saxlayır. Hökumətdə hesabatlılıga, şirkətlərin fərdi hesabatlılıgı kimi vacib məsələlərə nail olmaq, saglam debatlar aparmaq əvəzinə, qruplaşmalar arasında dava gedir. Demokratiya, vətəndaş Cəmiyyəti ugrunda mübarizə aparmaq yerinə maraqlar, fərdlər ugrunda "mübarizə" aparılır. Koalisiyadaxili nüfuz davası gedir. Acınacaqlıdır ki, seçkilərdə "ag" siyahılarla yanaşı "qara" siyahılar da tutulur, kimlərinsə Koalisiya Şurasına düşməməsi ugrunda "mübarizə" aparılır. Nəticə etibarilə peşəkarların çoxu şuradan kənarda qaldı. Şürada təmsil olunanlardan EİTİ fəlsəfəsini bilməyənlər var. Peşəkar müzakirələr yoxdur. Bu məsələlər Fondu ciddi düşündürürmü ?***

- - EİTİ şəbəkəsi qeyd etdiyim kimi bir məqsədlə yaranmışdı: 2003-cü ildə elan edilmiş təşəbbüsə Azərbaycanın maksimal qoşulması və VC üçün yeganə rəsmi yer olan çoxtərəfli qrupda təmsilçilik. O zaman Koalisiyanın tərkibində iqtisadçılar və iqtisadiyyata maraq göstərən mütəxəssislər üstünlük təşkil edirdi. Sonradan Koalisiya böyüdü və təbii ki, üzvlərini rəngarəngliyi də dəyişdi. Koalsiya da indi yalnız EİTİ təşəbbüsünə xidmət etmir, qarşısna daha geniş məqsədlər qoyub. Bir də yaddan çıxarmayaq ki, Koalisiya araşdırma və tədqiqatla yanaşı vəkillik fəaliyyəti də aparır, məhz belə yerdə geniş kütlənin təmsilçiliyi geniş imkanlar açır. Yadınıza iyun ayında QHT-lər haqda qanuna dəyişiklklər dövrünü salın. O zaman ən aktiv qurumlardan biri də Koalisiya idi. Koalisiyanın təkcə ekspertiza vermək əhəmiyyətindən savayı vətəndaş cəmiyyətinin iştirakçılıgı, onun maarifləndirilməsi vəzifəsi də var. Güman edirəm ki, koalisiyanın fəaliyyətini bu tərəfdən qiymətləndirməliyik.Bəli, şəxsi maraqları istisna etmək mümkün deyil. Ümumi maraqlar şəxsi maraqların üzərində qurulur. Onların arasında müəyyən razılaşma ümumi maraq kimi formalaşır. Bu prosesi QHT koalisiyasında da müşahidə edirik. Əlbəttə ki, rəhbərlik iddiasında olan, bəlkə də koalisiyanın məzmunu ilə baglı məsələlərdə kifayət qədər biliyi olmayanlar da var. Lakin, bunu da təbii qarşılamalıyıq. 130 nəfər arasında eyni dərəcədə nüfuzlu ekspertlər ola bilməz. Bu sahədə özünə yer axtaran, bəlkə də fəaliyyəti üçün maraqlı bir sahə kimi görünən, məlumatı az, lakin istəyi çox olan insanlar üçün də yer olmalıdır. Və bu, gördüyünüz kimi koalisiyanın fəaliyyətində xeyli ziddiyyətlər yaradır. Ziddiyyətlər isə bəzən maraq toqquşmalarına gətirir. Bunlar qaçılmazdır. Başqa tərəfdən isə bilik və bacarıqların fərqli səviyyədə olması koalisiya uzvlərini hətta birləşdirə də bilərdi. Görünür maarflədirmə və biliklərin artırılması, xüsusi təhsil tədbirlərinə ehtiyac vardır. Bu haqda düşünməliyik.

***- Bəlkə hökumətin gördüyu iş elə hökumətin görməli oldugu işlərdir və istəyərək bunları edir. Axı şəffaflıq sahəsində hökumət öhdəliklər göturub. Niyə biz hansısa ugurları koalisiyanın ayagına yazırıq?***

- Gəlin, yadımıza salaq ki, EİTİ təşəbbüsündə bir deyil, 3 tərəf var. Yəni bu tərəflərdən birinin olmaması artıq EİTİ-ın məğzini dəyişir və məqsədlərinə zidd çıxır. Fevralın ikisində dəyərləndirmə prosesi keçdik. Azərbaycan yeri gəlmişkən dəyərləndirməni keçən ilk ölkə idi. Bu, bir tərəfdən uğur olsa da, digər tərəfdən risk idi, çünki müqaisə üçün digər nümunə yox idi. Məhz Koalisiyanın təsiri nəticəsində Dəyərləndirmə hesabatı dəyişdirildi, çoxtərəfli qrupun yaradılması və illik işçi planı şərt kimi hökümət qarşısına qoyuldu. Məncə, bunu Koalisiyanın birbaşa uğuru hesab etməliyik. Hökumətin üzərində müəyyən vəzifələr var. Lakin, inkişaf etmiş cəmiyyətdə hökumətin fəaliyyətinə ictimai nəzarət və tənqid də olmalıdır. Bunun üzərində dialoq qurulmalıdır ki, hökumət vətəndaşların maragını düzgün anlayıb onun müqabilində siyasətinin təkmilləşməsi üzərində çalışsın. Bu fəaliyyət olmadan, vətəndaş cəmiyyəti müəyyən proseslərə qatılmadan həmin mexanizmlər işə salınmır. Beləliklə, vətəndaşla

hökumət arasında cəmiyyət üçün faydalı olmayan məsafə yaranır. Vacibdir ki, cəmiyyət mümkün qədər geniş iştirakçılarla irəliyə addım ata bilsinEkspert vəzifəsinin də keyfiyyətli həyata keçirilməsi üçün səylər göstərməyə ehtiyac var. MSŞ sahəsində hesabatların dəyərləndirilməsi Vətəndaş Cəmiyyəti tərəfindən aparılmalıdır, hesabatların təkmilləşməsi haqda düşünmək lazımdır. Bunlar hələ də həllini axtaran vəzifələrdir. Bizim də niyyətimiz vətəndaş cəmiiyətinin özünün ehtiyaclarından qaynaqlanmalı, onun dərk etdiyi dərəcədə olmalıdır. Yuxarıdan aşagıya yönəlmiş hansısa tövsiyyələrin nəticəsi müsbət də ola bilər, mənfi də.

***- Norveç Krallığının Azərbaycandakı səfiri Jon Rambegr MSŞT-nin dərinləşməsində hələ imkanların olduğunu deyib. Sizcə bu imkanlar nədən ibarətdir?***

- Əlbəttə, MSŞT-nin genişlənməsi haqqında xeyli ehtiyaclar və təkliflər var. Əvvəla hələ də öz həllini tapmamış məsələlərdən biri şirkətlərin fərdi hesabatlılıgı məsələsidir. Ikincisi, Dövlət Neft Şirkətinin xüsusi hesabatlılıgıdır. Üçüncüsü, vacibdir ki, təşəbbüs təkcə pay bölgüsü müqavilələrini yox, digər sahələri də əhatə etsin. Dördüncüsü, neft sənayesindən başqa, mədən sənayesinin digər sahələri də var ki, onlar da buraya daxil olunmalıdır. Eyni zamanda tranzit EİTİ üzrə də işlər başlanıb və bu sahənin də EİTİ-a daxil edilməsi üçün Azərbaycan, Gürcüstan, Qazaxstan və Ukrayna ekspertləri artıq müəyyən işlər görüblər. Bu çox səylər tələb edən bir prosesdir.

***- Milli Büdcə Qrupu da sizin təşəbbüslə yaranan bir qurumdur. Amma bizdə Vətəndaş Cəmiyyəti İnstitutlarının nüfuzu daha çox təşkilatlara söykənmir, ayrı-ayrı fərdlərin populyarlıgı üzərində qurulur.***

- MBQ təşəbbüsündə EİTİ-dən fərqli bir yanaşma var. Burada çalışdıq ki, fərdi ekspertizası, bilikləri ilə fərqlənən insanların işbirliyini yaradaq, bu istiqamətdə fəaliyyətlərini mərkəzləşdirək. Eyni zamanda ictimai vəsaitlərin xərclənməsindən təsirlənən şəxslərin də bu prosesə mümkün qədər artıq qoşulması nəzərdə tutulmuşdur. Konkret əhali qrupları arxayın olmalıdırlar ki, ictimai vəsaitlərdən onların probleminin həlli üçün növbəti ildə yetərli maliyyə ayrılacaq. İstər dövlət büdcəsi, istərsə də başqa vəsaitlərinin xərclənməsinin qərarlaşması onların iştirakçılıgı ilə olmalıdır. Bax bu tərəfdən maraq qrupu və daha geniş Vətəndaş Cəmiyyəti fəalları ilə ekspertlər arasında işbirliyinin yaradılması məqsədi hələ də qarşımızda duran bir problem kimi görünür. Bir donorun bu işə tam təminat verməsi çətindir. Güman edirik ki, bəlkə bu fəaliyyətə diqqət verən başqa donorlar da olsun. Bildiyimə görə var, amma hələ bu fəaliyyətin genişlənməsinə kifayət etmir. Biz də çalışırıq ki, donorların qatılması təmin olunsun, amma əlbəttə ki, bu ilk növbədə MBQ-nin özünün təşəbbüsü olmalıdır. Çalışırdıq ki, MBQ-nin məhsulları diqqətə səbəb olsun. Araşdırmaları tutarlıdır, ictimai vəsaitlərin xərclənməsində səmərəliliyin hansı göstəricilərlə müəyyənləşməsini aydın etmək mümkün olur. Bir çoxlarının hesabatları xeyli diqqətə səbəb olub. Artıq onların dövlət qurumları ilə də müəyyən işbirliyi müşahidə edilir.

Milli Büdcə Qrupu deyərdim ki, iqtisadi sahədə ən güclü şəbəkələrdən biridir və məndə olan məlumata görə Qrup ATƏT-in Azərbaycanda iqtisadi tərəfdaşı elan edilib.

***- MBQ cəmiyyəti büdcə ilə baglı daha çox məlumatlandıra bilər. Büdcə ilə baglı informasiyaların 20-25 faizinə çıxış var. Hökumət məhdud informasiya verir. Amma MBQ məhdud informasiyalardan maksimum istifadə etmək üçün əlindən gələni edirmi?***

- Yəqin ki, kifayət etmir. Eyni zamanda biz vətəndaşların əksəriyyətinin bu məsələ ilə məşgul olmasını da iddia edə bilmərik. Artan dərəcədə vətəndaşların bu prosesə qoşulmagı üçün çalışmaq lazımdır.

Burada qeyd etmək lazımdır ki, MBQ məhdud sayda üzvlərə malikdir, büdcə isə böyük məsələdir. Təkcə büdcə paketinə minlərlə səhifə daxilidir. Bunları oxumaq, rəy verməq asan deyil. Amma razıyam ki, daha çox vtəndaşlar cəlb ediməlidir bu sahəyə. Bizim əslində bir təşəbbüsümüz də olmuşdu bununla bağlı; gənclərin bu sahəyə cəlb edilməsi üçün müsabiqə elan etmişdik. İndi OXFAM NOVİB həmin layihənin davamını maliyyələşdirir.

***- Qrupun büdcə sahəsində qanunvericilik təşəbbüsləri azdır. Mətbuatla əlaqələr zəifdir. Qrup potensialını tam reallaşdırmır. Hökumətin maliyyələşdirdiyi layihələr, onlara ayrılan vəsaitlər tam olaraq tapılıb ortaya qoyulmur. MBQ-də ciddi müzakirələr fundamental, müntəzəm getmir. Axtarışda deyillər. Belə görünür ki, əsasən üzdə olan məlumatların şərhi ilə məşğuldurlar.***

- Yəqin ki, bunu onlardan soruşmaq lazımdır. Amma bildiyimə görə təkcə üzdə olan məlumatlardan istifadə etmirlər. Onlar bu məlumatı analiz etdikdə xeyli vacib faktları üzə çıxarırlar. Bəzən üzdə olan materialları belə müqayisə edəndə maraqlı faktlar müşahidə etmək olur. Məlumatıma görə bir çox hallarda hətta geniş istifadə olunmayan materialları da əldə edirlər. Səhv etmirəmsə dövlət investisiyası ilə baglı xeyli məlumatlar ortaya qoyublar. Nəyi isə əldə edirlər, nəyisə əldə edə bilmirlər.

***- Mənim isə aldıgım məlumata görə, sözügedən qrupun elə məhz investisiya xərcləri, hökumətin maliyyələşdirdiyi layihələrlə baglı məlumatları əldə etmək sahəsində nailiyyətləri yoxdur. Ortada cəmiyyətin maragına səbəb ola biləcək xüsusi tapıntılar görünmür.***

- Məncə onlar bunu bir necə ay əvvəl ediblər. Nazirlər Kabinetindən alınmış bir sənədin müqayisəli təhlili nəticəsində bəlli oldu ki, təsdiqlənmiş büdcədən kənara çıxılıb, layihə siyahısı bir qədər fərqli rəqəmlər verir. Bu haqda narahatçılıq da bildirildi. Hər halda MBQ belə səylər göstərib.

Odur ki, sizinlə razılaşmazdım. Bir müddət əvvəl MBQ üzvlərindən olan R.Ağayevin apardığı tədqiqat xeyli səs-küyə səbəb olmuşdur. Yadınızdadırsa, Rövşən bəy sosial sahələrə ayrılan tikinti xərcləri üzrə müqaisəli təhlil aparmışdı. Məlum olmuşdu ki, büdcə hesabına tikilən obyektlər məsələn səfirliklərin tikdiyi obyektlərdən qat-qat baha başa gəlir.

***- Qrupda təmsil olunan təşkilatların potensialına uygun vəsaitlərin verilməsi ilə baglı indikatorlarınız mövcuddurmu və qrupun daha səmərəli işləməsi üçün ayrılan resurslarla əldə olunan nəticələri müqayisə edirsinizmi? Ümumiyyətlə, hesabatlılıq sahəsində sərt qaydalardan istifadə etməyi fikirləşirsiniz?***

- Gördükləri iş haqda verdikləri hesabatlar tutarlıdır. Öhdəliklərinə götürdükləri vəzifələri başa çatdırırlar. Tədqiqatlar aparırlar, onların ictimailəşməsi üçün tədbirlər keçirirlər. Məhsülları peşəkar icra olunur. Maliyyə hesabatları dəqiq olur. Bu tərəfdən narazılıgımız yoxdur. Bəlkə də hansısa yeni mövzuların axtarışı, tədqiqatların daha dərin aparılması vacibdir. Yəqin ki, bunu ekspertlər arasında mübadilə nəticəsində müəyyənləşdirmək olar. Donor mütəxəssis deyil ki, bunu daha dəqiq etsin. Qrupda təmsil olunan təşkilatların potensialına gəlincə, mütəxəssislər vasitəsilə monitorinq aparırıq. Nəticələr özündə xeyli tənqidi və tövsiyyə xarakterli məqamları da əks etdirir. O məqamlar onlara çatdırılır ki, işin təkmilləşməsi mümkün olsun. Ola bilsin, qrupun daxilində daha görkəmli, daha ugurlu, daha nüfuzlu ekspertlər var. Güman edirəm, burada özünüdəyərləndirmə mexanizmi də işə salınmalıdır.

***- Bəzi qht rəhbərləri belə deyirlər ki, ACİ-YF-nin idarə heyəti üzvləri təqdim olunan layihələri oxumurlar. Layihələr təşkilatların tituluna və ya təşkilat rəhbərlərinin "nüfuzu"na verilir. Bu fikri nə dərəcədə bölüşürsüz?***

- Fondun İdarə Heyəti üzvərinin yüzlərlə layihəni oxumaq imkanları yoxdur və bu, nəzərdə də tutulmayıb. İH əslində nəzarətçi funksiya daşıyan bir qurumdur. Lahiyələr komissiyalarda oxunur, tövsiyyə və qərarlar da orada verilir. Ancaq böyük layihələrə İdarə Heyəti baxmalı olur. Onların sayı isə o qədər çox deyil. Şübhəsiz ki, təşkilatın da nüfuzu, bacarıgı, təcrübəsi qərarvermədə nəzərə alınan amillərdir.

***- Fikirlər var ki, layihələrin qiymətləndirilməsi ilə baglı yaradılan ekspert şuralarının özündə bəzən kompetensiyası olmayan adamlar oturur, bilmədikləri sahələr üzrə layihələrə rəy verirlər. Ekspert Şuralarının tərkibi diqqətlə yoxlanılır?***

- Bunlar nisbidir. Kiməsə daha çox etibar edə bilərsiz, kiməsə daha az. Ekspert komitəsinin tərkibində olan üzvlər eyni dərəcədə deyillər. Lkain qerar verənlərin hamısı öz vəzifələrinin yerinə yetirilməsi üçüm hazırlıqlı insanlardır. Burada qərarvermənin üstünlüyü məhz ondan ibarətdir ki, komitənin bir neçə üzvü müzakirə edib, bir qərar çıxarırlar. Bu heyətdə biri daha çox təcrübəli, o birisi daha az təcrübəlidir.. Nisbətən az təcrübəsi olan, amma hansısa bir tərəfdən məsələyə nəzər salan və öz töhfəsini vermiş ekspert ümumi işə yardımçı bir tərəf kimi qəbul olunmalıdır. Burada vətəndaş təşəbbüsləri və fəallıgından söhbət gedir, hansısa elmi araıdırmaların qiymətləndirilməsindən yox. Odur ki, ugursuzluqla rastlaşmış "qrantyorlar" əgər bu tərəfdən layihələrinin dəstəklənməməsinin səbəbini axtarırlarsa, güman edirəm, onlar qərarqəbuletmə prosesinin incəliklərini ya qəbul etmirlər, ya da düzgün dərk etmirlər.

***- Fondunuzun vəsaitlərinin orta hesabla 60 faizini partnyorlarına yaratdıgı şəbəkələr vasitəsilə müsabiqə keçirmədən verməyi vətəndaş cəmiyyətinin digər üzvlərinin qrantlara çıxışını məhdudlaşdırdıgı barədə fikirlər var. Belə hesab edirlər ki, Fondun Koalisiya, şəbəkə və ya qrup***

***halında qrantlar verməsində yanaşma səhvdir, bunda məntiq yoxdur. Partnyor koalisiyalar vasitəsilə vəsaitlər həmin təşkilatın üzvü olan qurumlara verilir, yeni təşəbbüslə çıxış edənlərin ideyası dəstəklənmir. Yəni burada azad rəqabət prinsipləri pozulur və bu, QHT sektorunda monopoliyanın bir formasıdır. Şəbəkə layihələrinin verilməsi fondunuzun hansı siyasəti ilə tənzimlənir?***

- Bu iki yanaşma bir-birini təkmilləşdirəndir. Təcrübədən çıxmış, QHT dairəsini geniş tutan, özündə maarifləndirmə və xüsusi ekspertizanı ehtiva edən təşəbbüslər təsir göstərmək imkanındadır. Bunu hansısa yeni bir təşkilatla qurmaq mümkün deyil. Əvvəla risqlər çoxdur. Ikincisi də təcrübəsi də yoxdur. Əgər yaratdıgımız koalisiyaların inkişafına uzunmüddətli yardım etməsək, o koalisiyalar daxilində keyfiyyət, fikir müxtəlifliyi, vətəndaş cəmiyyətinin daxili şəffaflıgı və özünün nəzarət etmək mexanizmlərinin işlənməsi də mümkün olmaz. Bu məqsədlərə xidmət edən layihələri vacib, strateji tərəfdən əhəmiyyətli sayırıq, üzərimizə öhdəliklər götürürük. Digər tərəfdən, müsabiqələrdə yeni fikir bildirmək imkanları var. Daha artıq genişlənən, daha vacib olan yeni təşəbbüslər qarşısında da uzunmüddətli məsuliyyət götürmək haqda düşünə bilərik. Təəssüflər ki, belə hallar nadir olur. Biz jurnalist araşdırmalarına yardım etmək fikrinə bir neçə il müsabiqələr keçirərək gəldik, bunu tədricən vacib məsələyə çevirdik. Orada belə bir fikir var idi ki, QHT və jurnalistləri birləşdirən bir mühit yaransın. Görünür bu belə bir idilliya idi ki, mümkün olardı, ama əslində olmadı. Nəticələri göz qabagındadır.

***- Fərda müəllim, bu məsələdən özünüz söz salmışkən mən də bir qeyd edim ki, Şəbəkə layihəsinin təkcə fəlsəfəsi səhv deyildi axı. Eyni zamanda şəbəkə ideyasının fiaskoya ugramasına səbəb şəbəkənin daxilində baş verən mənimsəmə faktıdır.***

- Bəli, mənimsəmə faktı da bir fiaskodur ki, siz seçdiyiniz adamı nəzarətdə saxlaya bilmədiniz. Eyni zamanda bu məsələnin üzə çıxması onun nəticəsində oldu ki, birlikdə bu fəaliyyəti aparırdınız və ugursuzluqları öz daxilinizdən də müəyyən edə bildiniz. Dediyimiz effekt işlədi. Sadəcə, nəticəsi layihənin ugurundan xəbər vermədi.

***- Maraqlıdır ki, layihəyə göstərdiyiniz dəstəyin dayandırılmasından daha çox o adamlar zərər gördülər ki, onlar mənimsəmə faktını üzə şıxardılar və vəsaitin cüzi bir hissəsini Fondunuza bərpa etməyə nail oldular. Qazanan isə  fiaskonun səbəbkarı oldu.***

- Burada hər tərəf ziyan çəkəcək. Şübhəsiz ki, belə ugursuzluq olanda, heç bir tərəf udmur. Bu layihəyə qoşulan, həvəsi olan insanlar ziyan çəkiblər. Amma nəticə etibarilə kimsə düşünürsə ki, ugur qazanib, bu səhvdir. İnanmıram ki, ortada nəsə qazanıbsa, bu onun xeyrinə olacaq. Mənəvi dəyərlər, nüfuz dəyərləri, xoş münasibət amili var. Bunlar əsasdır. Əgər biz bunlara dəyər vermiriksə, hansı cəmiyyətdən danışırıq? Mənəviyyatsız cəmiyyətdən?

***- Bu haqda artıq Fondunuzun xəbərdarlıq məktubu yerli və beynəlxalq təşkilatlara göndərilib. Mənimsəmə faktı ilə baglı hər hansı ciddi addımlar atacaqsız, məsələni hüquqi müstəvidə çözməyi planlaşdırırsız, yoxsa müəyyən sanksiyalar tətbiq edəcəksiniz?***

- Ciddi addım atacagıq. Kifayət qədər təsirli sanksiyalar olacaq. Bu mütləq olmalıdır.

***- Belə rəylər də var ki, Açıq Cəmiyyət İnstitutu açıqlıq prinsiplərini qorumur. Qrant müsabiqələrinin keçirilmə mexanizmi qeyri-şəffafdır. Bu səbəbdən də qazanmayan təşkilatlara müsabiqənin nəticələri barədə məlumat verilmir. Digər donorları qoyaq bir tərəfə, hətta QHT-lərə Dövlət Dəstəyi Şurası belə təzə yaranmagına baxmayaraq formal da olsa təşkilatlara məktub ünvanlayır. Layihənin keçməməyinin səbəbi əsaslandırılır. Bu mexanizm olanda nəticələrdən şikayət də etmək mümkündür.***

- Biz hər zaman rəsmi məktublar göndərirdik. Bu xeyli dərəcədə problemli proses idi. Bir çox ünvanlar dəyişir, məktublar geri qayıdırdı. Göndərdiyimiz poçtlar express yola salınır, xeyli vəsait aparır, amma səmərəsiz qalırdı. İndi web saytımızda ərizələrin yoxlanılması mexanizmini qoymuşuq. Nəticəni öyrənmək üçün təşkilatlar qeydiyyat nömrələrini daxil edib, layihələrinin statusunu öyrənə bilərlər. Digər tərəfdən, biz həmişə açıgıq. Kimin fikir bildirmək ehtiyacı varsa, hər zaman müraciət edə, təkcə proqram rəhbəri yox, icraçı direktorla da görüşə bilərlər. Hər cür izahat verməyə hazırıq. Bizdə artıq şikayət komissiyası da var. Komissiya hansısa faktlara və ehtimallara işarə varsa - qərəzlilik, prosedurun pozulması, açıqlanmamış maraq ziddiyyəti olubsa, onu araşdırıb, qərar qəbul edir. Şikayət komissiyası layihəni bərpa edə bilməz. Çünki, şikayət əsasında bütün layihələrə baxmalı və beləliklə, komissiyanın işini təkrarlamalıdır. Bu isə məntiqsiz görünür.

***- QHT rəhbərləri şikayət edirlər ki, ACİ-YF-nin İdarə Heyəti üzvləri, məsələn, Rasim Musabəyov, Arzu Abdullayeva, Zərdüşt Əlizadə özləri İH üzvü olduqları donordan iri məbləgdə qrantlar alırlar. Bu maraqlar konfliktidir. Daxili qaydalarınızda da bu qadagan olunur bildiyimə görə.***

- Burada sərt qadaga yoxdur, amma bizdə maraq ziddiyyəti siyasəti var. Qərar verən qrup üzvünün layihəsi və ya ona aidiyyati olan bir layihə daxil olduqda özü qərar vermək ixtiyarında deyil. Mərkəzi ofisdə maraq ziddiyyətinə baxan xüsusi bir komitə işləyir. İdarə Heyəti ilə baglı oldugu üçün də belə müraciətlərə həmin struktur baxır və qərar verir. Rasim Musabəyov Hikmət Hacızadə və Sabit Bagırovla birgə təsis etdikləri Farcenter adlı QHT-nin rəhbərliyindədir. Rasim bəy sözügedən GHT-in layihəsində iştirakçısı olmamasına baxmayaraq, layihəni Nyu-Yorka göndərdik və onlar proqramın icrasına qərar verdilər. Bu haqda bir iki belə fakt yadıma gəlir. Bir hadisə də İlqar Məmmədovun tədbirdə iştirakçılıgı ilə baglı olub. Bu məsələ də Nyu-York ofisində qərarlaşdırılıb. Zərdüşt Əlizadə, Arzu Abdullayevanın layihələrinin burdan keçdiyi yadıma gəlmir sadəcə.

***- 2010-cu ildə prioritetləriniz nədir? Strategiyanızda bir dəyişiklik gözlənilirmi? Gələn il partnyorlarınizdan hansı təşkilatlatlarla davam edəcəksiniz, kimləri yarı yolda qoyacaqsınız?***

- Biz istəməzdik ki, kimisə yarı yolda qoyaq. Istərdik ki, vacib fəaliyyətlərimizi davam etdirək. Yeni müsabiqələrimiz olacaq. Çox vacib tədbirlər sırasında kommunal xidmətlərin - qaz, işıq və su xərclərinin şəffaflıgını görürük. Bu fəaliyyətə xüsusi diqqət bizim yeni bir istiqamətimiz kimi görsənir. Çox istərdik ki, eyni zamanda think tank – analitik qruplarin institusionallaşmasına, mütəşəkkil olmasına yardım edək. Hələlik açıq müsabiqələr elan edirik və orada potensialı üzə çıxarmaq məqsədini qoyuruq. Bir neçə istisnalar olmaqla təəssüf ki, əsil mənada analitik qrup potensialına sahib olan təşəbbüs azdır. Çox istərdik ki, bu analitik qrupların daxilində mütəşəkkillik, təşkilatçılıq, ekspertiza baxımından müəyyənlik və səviyyə olsun ki, artıq bəlkə də strategiyamızda bəzi dəyişiklik edib onlara yenə də uzunmüddətli yardım edək. Çünki Azərbaycanda dogrudan da nüfuzlu, peşəkar think tank-lərə ehtiyac var. Və o nüfuz və peşəkarlıq yalnız ardıcıl fəaliyyət nəticəsində formalaşan bir təcrübədir. Bizi bəzən təqsirləndirə bilərlər ki, getdikcə səylərimizi mərkəzləşdirib, ixtisaslaşdırmaqdansa, çalışırıq ki, bir çox vacib təşəbbüsləri əhatə edək. Bu, iki bir-birinə qarşı duran tendensiyadır. Nəyisə keyfiyyətli etmək üçün gərək bütün diqqətinizi ona yönəldəsiniz. Amma bütün diqqətini bütün istiqamətlərə yönəltmək də çətindir. Özəlləşmə prosesində hüquqların qorunması, mülkiyyətçilərin hüquqları da böyük problemlərdir. Biz bunlarla məşgul olmamışıq. Bir çox məsələlər var. Elə Qarabag probleminin özünün də necə həll olunmasını biz ən vacib məsələ sayırıq və həlli imkanlarını araşdırmalıyıq.